**Məmmədova Könül Ələddin qızı**

# İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ ÜZRƏ YENİ DƏRSLİK KOMPLEKTLƏRİNİN ƏNƏNƏVİ DƏRSLİKLƏRLƏ MÜQAYİSƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Dərslik təhsil siyasətinin əsasıdır. Dövlətin ümummilli mənafeyi dərslukdə öz əksini tapır. Dərslik təhsilin mühüm komponenti milli mədəniyyətimizin mənbəyi, xalqın mənəvi sərvəti olub, neçə-neçə nəslin gözlərini həyata açır, onları pillə-pillə elmin zirvəsinə doğru aparır. Ona görə də dərslik nəzəriyyəsi həmişə diqqət mərkəzində olmalıdır. Yeni təlim texnologiyalarının tətbiqi ilə keçirilən müasir dərslər ənənəvi dərslərdən bir çox üstün cəhətləri ilə fərqlənir:

*Ənənəvi dərslərin xüsusiyyətləri:*

1. Diqqət bilik və bacarıqların mənimsənilməsinə yönəlir, şagirdlərin tərbiyə və inkişafi çox vaxt müəllimin rəhbərliyindən kənar həyata keçirilir.
2. Müəllimin əsas funksiyası şagirdlərə məlumat çatdırmaq və onun mənimsənilməsi üçün şərait yaratmaqdır.
3. Müəllim- şagird münasibətlərində avtoritar üslubun üstünlüyü.
4. Dərs tədris fənni çərçivəsi ilə ciddi məhdudlaşır.
5. İnkişafedici və tərbiyəedici amil kimi, əsasən, təhsilin məzmunu götürülür.
6. Dərs demək olar ki, həmişə adi qaydada keçilir.
7. Müəllim bütün funksiyaları özündə saxlayır.

*İnteraktiv dərslərin xüsusiyyətləri*

1. Diqqət ilk növbədə şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir.
2. Müəllim ilk növbədə idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çixiş edir.
3. Müəllim və şagird arasında əməkdaşlıq, məktəblilərin dəlillərinə və fəaliyyətinə böyük diqqət.
4. Müasir nəzəriyyə müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən keçirilən fənlərarası dərsləri istisna etmir.
5.Təhsilin məzmunu ilə yanaşı şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır.
6. Ənənəvi olaraq digər formaların əlamətləri dərs sayilan və ona qarşı qoyulan bəzi elementləri (məs: seminar-dərs,oyun- dərs, yarış- dərs, konfrans- dərs və s.) assimilyasiya edir.
7. Yeni dərslik komplektləri müəllimin funksiyalarının bir hissəsinin şagirdlərə verilməsi məsələlərində səciyyəvi xarakter daşıyır. Belə ki, bilik və bacarıqların yoxlanılması və qiymətləndirilməsi (qarşılıqlı və özünüqiymətləndirmə), işin planlaşdırması, tədqiqat və özünü qiymətləndirmə elementləri və s. işlərdə müəllim-şagird münasibətləri subyekt-subyekt prinsiplərinə istinad edir [2.28].

Ənənəvi dərsliklərin dilinin aydınlığı onun hazırlanmasına verilən mühüm tələblərdən biri idi. Başqa dillərdən tərcümə edilən dərslik və dərs vəsaitlərinin dilinə xüsusi diqqətlə yanaşılması vacib sayılırdı. Dərsliklərdə vaxtaşırı yazılışı çətin sözlərə də rast gəlmək mümkün idi. Mövzu ilə bilavasitə bağlı olmayan bu çalışmaların verilməsində məqsəd yazılışı çətin sözlər üzrə vərdişləri möhkəmləndirməkdən ibarət idi. Dərs ilinin sonuna yaxln müəllim bütün sözlərin necə mənimsənildiyini yoxlayırdı. Həm də dərslikdə imkan olmadığından hər məşğələ üçün 3-5 çalışma nəzərdə tutulurdu. Bu çalışmalar, əsasən sıra nömrəsi ilə yerinə yetirilməli, evə yazılı çalışmalar verilməliydi. Çalışmanın çatmayacağı hiss olunan halda müəllimin özü əvvəlcədən həmin çalışmalara bənzər çalışmalar tərtib edirdi. Dərsliklərdə nisbətən çətin, mürəkkəb çalışmaların həlli yolunu bütün şagirdlərin başa düşmələrini təmin etmək üçün nümunənin nümunənin verilməsi vacib sayılırdı. Həmin nümunə də çalışmanın mətindəki söz və cümlələrə bənzər yeni material əsasında verilirdi. Məsələn, əvvəlki Azərbaycan dili dərsliklərində çalışmaların məzmunu dörd vasitə ilə təqdim edilirdi,şəkillər, sözlər, cümlələr, rabitəli mətnlər. Yuxarıda qeyd olunduğu kimi, şəkillər bir neçə növə - əşya şəkilləri, seriya şəkilləri, sujetli şəkillərə bölünürdü. Bunların hər birindən müxtəlif məqsədlər üçün istifadə olunurdu: Əşya şəkilləri bir neçə məqsədlə verilə bilərdi - lüğət işi aparmaq üçün, ayrı-ayrı əşyaların adlarını demək üçün, əşya şəkillərinə baxıb, adlarını düzgün tələffüz etmək, orfoqrafiya üzrə iş aparamaq üçün, ayrı-ayrı əşya şəkillərinə baxıb, düzgün yazılışı üzrə məşq etmək və s. Seriya şəkilləri, əsasən şagirdləri rabitəli mətnin tərtibinə hazırlamağa xidmət edirdi. Seriyaya daxil olan hər şəkildə baş verən hadisənin bir epizodu öz əksini tapmalı idi. Şagirdlərin hər şəkil üzrə qurduğu bir neçə cümlə ardıçıllığı birləşdirildikdə rabitəli mətn, hekayə alınmalıydı . Süjetli şəkillər daha dolğunluğu, bitkinliyi, tamlığı ilə seçilirdi. Belə şəkillər artıq bədii əsər hesab olunurdu. Onun üzərində düşünmək, araşdırmaq, hekayə qurmaq mümkün idi. Süjetli şəkillərin məzmunu mövzudan və məqsəddən asılı olaraq dərsliyin müəllifi tərəfindən müəyyənləşdirilirdi və ya hazır təsviri sənət əsərlərindən seçilirdi. Süjetli şəkillər həm şifahi, həm də yazılı inşaların aparılması üçün verilirdi [1.18].

Ənənəvi dərsliklərdə sualların və tapşırığların qoyuluşunda yeknəsəklikdən qaçmaq, onların rəngarəngliyini təmin etmək məqsədilə sual və tapşırıqlar tərtib olunarkən didaktikanın sadədən mürəkkəbə prinsipi nəzərə alınmış, eyni məsələ üzrə əvvəlcədən sadə, asan, tədricən şagirdləri müstəqilliyə aparan tapşırıqlar verilmişdir. Onu da qeyd edək ki, dərslikdə suallar yalnız faktları şərh etmək, şagirdlərin nələri öyrəndiklərini aşkara çıxarmaq üçün deyil, həm də onlarda müşahidə aparmaq, müqayisə etmək, qarşılaşdırmaq, qurplaşdırmaq, təsnif etmək onların məntiqi və obrazlı təfəkkürə yiyələnmələrini təmin etmək, hadisə və proseslərin ardıcıllığını, təbiətin obyektləri və hadisələri arasında münasibətləri müəyyənləşdirmək, insanla təbiət, insanla cəmiyyət arasında əlaqələri fərqləndirmək, öyrənilənləri təcrübəyə tətbiq etmək və s. vəzifələri yerinə yetirirdi [2.8].

Ənənəvi dərsliklərdə fənlərarası əlaqəyə geniş yer ayrılmırdı. Təlim prosesində hər bir dərsin elmi səviyyəsini yüksəltmək üçün fənlərarası əlaqəyə diqqət edilirdi. Məsələn, Azərbaycan dili orta məktəbdə tədris olunan fənlər içərisində ədəbiyyatla daha çox bağlı olduğundan, bu fənlərin əlaqəli öyrədilməsi tamamilə qanunauyğundur. Müşahidələr göstərir ki, şagirdlər dil materialına nə qədər çox yiyələnsələr, dilimizin forma və qanunlarını bir o qədər yaxşı dərk edər və daha geniş, daha dərin və müxtəlif növlü məlumata sahib olarlar. Ədəbi əsərlərin qiraəti şagirdlərin ümumi mədəni və ədəbi - bədii səviyyəsini yüksəldir, lüğət ehtiyatlarını artırır, onlara sözlərin məna və əhəmiyyətini daha dərindən anlamağa, cümlədə və bütün rabitəli nitqdə sözlərin bir-birilə əlaqəsini öyrənməyə imkan verirdi. Çünki ədəbi materialn qiraəti şagirdlərə məzmunlu və ifadəli nitq nümunələri verirdi. Digər tərəfdən, qrammatik təhlil aparılmazsa, ədəbi mətnlərin dil və üslub xüsusiyyətləri bütün dərinliyi ilə anlaşılmaz və şagirdə onları öz nitqlərində dəqiq, yerli - yerində işlətmək bacarığına yiyələnə bilməzlər. Mövzulararası əlaqədə, qrammatikanın ayrı-ayrı mövzuları, rabitəli şəkildə şagirdlərə öyrədilir[4.18].

Müasir dərslikləri araşdırarkən məlum oldu ki, ənənəvi dərsliklərlə müqayisədə müasir dərsliklərdə verilən materiallar, əsasən, şağirdlərin deklorativ biliklərinə deyil, kontekstual və psixomotor biliklərinin inkişafina əsasən tərtib olunmuşdur. İbtidai siniflərdə tədris olunan Azərbaycan dili fənninin əsas məqsədi şagirdlərdə oxu, yazı, dinləmə və danışma bacarıqlarının formalaşmasını təmin etməkdən, onlarda ümumi nitq mədəniyyətinin inkişaf etdirilməsindən ibarətdir. Lüğət ehtiyatının zənginləşdirilməsi bu məqsədə nail olunmasında mühüm əhəmiyyətə malikdir [2.13]. Azərbaycan dilindən II və III siniflərdə bəzi mövzuların tədrisində istifadə edilən materiallara nəzər salaq. Nağıl formasında verilən materiallar şagirdlərdə dərsə yüksək maraq yaradır. Məzmun standartlarının mahiyyəti ilə bağlı ikinci yanaşma onların sıralanması, düzülməsi ardıcıllığındadır. Standartların sıralanmasının məntiqi müxtəlif fənlərdə müxtəlif ola bilər. Məsələn, ana dilində sadədən mürəkkəbə, riyaziyyatda məlumdan məchula, yaxud tarixdə xronologiya üzrə ola bilər. Təlim məqsədlərindən və fəal təlimin texnikalarının tipindən asılı olaraq dərs zamanı bir və ya bir neçə texnikadan istifadə edilə bilər. İnkişaf etdirmək istədiyi bacarıq vərdiş, keyfiyyət və ya kompetensiyaları nəzərə almaq şərti ilə müəllim öz təsnifat qrupunu yarada bilər [2.13].

Yeni dərslik komplektləri ilə iş zamanı elə ilk dərslərdən şagirdlə müəllim arasında qarşılıqlı məhsuldar təlim mühiti yaranır, nəticədə şagirdin məxsusi, müstəqil, yaradıcı fəaliyyəti maksimum aktivləşir. Çünki müəllimlə birgə tapşırıqların həlli zamanı şagird mütləq müstəqil düşünməli və qərarlar qəbul etməli olur. Müasir inkişafetdirici dərsliklər yalnız bilik vermir, həm də problem qoymağı, tədqiq etməyi öyrədir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Kərimov Y.Ş. "III sinifdə Azərbaycan dili dərsləri" Bakı, "Nasir" nəşriyyatı, 2003.
2.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010.
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
4."Azərbaycan Respublikasında təhsilin inkişafi üzrə Dövlət Strategiyası". Bakı, 2013.
5. K.Məmmədova. İbtidai siniflərdə Azərbaycan dili dərslərində şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişafi (metodik tövsiyə). Bakı, 2013.

**Açar sözlər:** Yeni dərslik komplekti, ənənəvi dərsliklər, inteqrasiya, təlim
**Ключевые слова:** Комплект нового учебника, традиционные учебники, интеграция, технология обучение,
**Key words:** New textbook set, traditional textbooks, integration, training technology, interactive lesson

**Основные направления сравнения новых комплектов учебников в начальных классах по Азербайджанскому языку с соответствующими традиционными учебниками**

**Резюме**

В статье изложено основные направления сравнения новых комплектов учебников в начальных классах по Родному языку с соответствующими традиционными учебниками. При сравнении новых и традиционных учебников по Родному языку указано что, составление материала для новых учебников основана не на декларативных знаниях учеников, а на развитие контекстуальных и психомоторных знаний. В отличие от традиционного учебника на новых учебниках с учетом цели обучения, выбор стратегии учения самим учителем и рассмотрения учащихся в качестве субъекта выдвинут на первый план.

**The main directions of the comparison of new textbook sets with traditional ones on Azerbaijani language in primary classes.**

**Summary**

The article deals with the main directions of the comparison of new textbook sets with traditional ones on Azerbaijani language in primary classes. Besides, it has been emphasized that materials given in modern textbooks must be mainly compiled according to development of contextual and psychomotor knowledge of students, but not to the development of their declarative knowledge when traditional textbooks are compared with modern ones; unlike traditional ones, teaching strategies should be selected by a teacher on the condition that teaching purposes are taken into consideration in new textbooks, students have to be seen as a subject.

**Rəyçi:** ADPU-nun "Azərbaycan dili və onun tədri**si metodikası" kafedrasının dosenti, pedaqoji elmlər doktoru Nabat Cəfərova**

**Sevda Abbasova, Aişə Məmmədova**

**PEDAQOJİ KADR HAZIRLIĞINA YENİ YANAŞMA**

Təhsil insanın mənəvi şəxsiyyətinin formalaşmasında, öz ölkəsinə olan sevgisində, daim yeniliklər etmək, yaratmaq və inkişaf etdirmək fonunda təzahür edir. Bu da vətənimiz olan Azərbayanın uğurlu inkişafi üçün ən mühüm şərtdir. Təbii ki, bunlar Azərbaycan təhsilinin modernləşdirilməsi kontekstində mümkündür.

Hazırda Azərbaycan Respublikasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də köklü islahatlar həyata keçirilmiş və uğurlu nəticələr əldə edilmişdir. Bu islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, müəllim hazırlığına və qiymətləndirmə sistemlərinə yenidən baxılması zərurəti yaranmışdır. Təsadüfi deyil ki, 2020-ci ilədək uzun bir dövrü nəzərdə tutan "Azərbaycan Respublikasında təhsilin inkişafi üzrə Dövlət Strategiyası"nda da bu məsələyə xüsusi əhəmiyyət verilir. Strategiyada deyilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur"(1)

Azərbaycan təhsil sistemi bu gün dünyaya inteqrasiya mərhələsindədir. Təhsilin tərkibində və strukturunda köklü dəyişikliklər baş vermişdir. Bu iş bütün sahələrdə olduğu kimi müəllim şəxsiyyətində, müəllimin peşə etikasında da özünü göstərir. Mövcud siyasi, sosial-iqtisadi və mədəni vəziyyət cəmiyyətdə müəllimlərin təhsilində yeniliklər tələb edir. Ən əhəmiyyətlisi isə odur ki, gələcəyin müəllimini hazırlayarkən - fərdi yaradıcı bir yanaşma və özünü inkiş af etdirmək konsepsiyası tələb olunur. Hər zaman müəllim öz şagirdləri və tələbələri üçün nümunədir.

Bu gün təhsil ictimaiyyəti belə bir ümumi fikrə gəlirlər ki, ənənəvi təhsil sistemi, onun məzmununu təşkil edən biliklər müasir tələblərə cavab vermir. İnkişaf və tərəqqi üçün fundamental biliklər, təhsilə yeni konseptual yanaşma tələb olunur. Bu qeyd etdiklərimiz gələcəkdə müəllim kimi yeyişməkdə olan tələbələrə təkcə sessiyaları başa vurmaq üçün deyil, daha uzunmüddətli, gələcək fəaliyyətləri üçün daha lazımlı bacarıq və vərdişlərlə təmin olunması ilə səciyyələnməlidir.

Bilirik ki, dövlətin, cəmiyyətin və insanların həyatında təhsilin əhəmiyyəti əvəzedilməzdir. YUNESKO-nun müəyyən etdiyi tərifə görə təhsil şəxsiyyətin bacarıq və davranışlarının təkmilləşdirilməsinin elə bir prosesi və nəticəsidir ki, bu zaman o, əqli yetkinlik və fərdi inkişafa nail olur. Təhsil daimi, fasiləsiz öyrənmə prosesidir. Təhsil vasitəsilə insanlar bilik və bacarıqlar qazanır ki, bu da onların gələcək həyatlarını necə qurmasına, necə karyera qazanmasına, bir sözlə arzularının gerçəkləşməsinə imkan yaradır.

Azərbaycan təhsil sistemində formal, qeyri-formal, informal və əlavə təhsil formaları mövcuddur. Formal təhsil öz növbəsində erkən (məktəbəqədər), ibtidai, orta (ümumtəhsil və peşə-ixtisas təhsili daxil olmaqla) və ali təhsil (bakalavriat, magistratura və doktorantura) mərhələlərinə ayrılır.

Bu mərhələlərin hər birinin insan həyatında mühüm rolu var. Ölkəmizdə məktəbəqədər təhsilin məqsədi erkən yaş dövründən başlayaraq uşaqların əqli, fiziki və yaradıcı potensialının, mədəni səviyyəsinin inkişafının, psixoloji dayanıqlığının və sağlamlığının, mühafizəsinin, ətraf aləmə həssas, şüurlu münasibətinin və şəxsiyyətinin formalaşdırılmasından ibarətdir. Bu mərhələ uşaqların zəruri həyati bacarıqlara yiyələnmələrini və məktəb təhsilinə hazırlığını təmin edir.

Ümumtəhsil məktəblərində təlim prosesinin məqsədi milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. Cəmiyyətin inkişafında, onun hər bir üzvünün təhsil almasında, dünyagörüşünün formalaşmasında, həmçinin onun gələcək inkişaf istiqamətlərinin müəyyənləşməsində müəllimdən çox şey asılıdır. Bu şərəfli işdə müəllimin missiyası ondan ibarətdir ki, müəllim hər bir şagirdin təlim fəaliyyətini tənzimləsin və onun normal inkişafına nəzarət etsin.

Məlumdur ki, müəllim şəxsiyyətin formalaşması və idarəedilməsi vəzifəsini eyni zamanda yerinə yetirir. Bu onunla əlaqədardır ki, müəllim şəxsiyyətin intellektual, peşə və fiziki hazırlığını idarə edir, onun mənəvi aləmini zənginləşdirir.

Müəllim olmaq məsuliyyətli, xeyirxah və eyni zamanda çətin bir işdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir. Hər bir müəllim ixtisasından asılı olmayaraq müasir metodikalara, yeni təlim texnologiyalarına yiyələnməli, daim özünütəhsillə məşğul olmalı, nəzəri və praktik xarakterli bilik və bacarıqlara sahib olmalıdır.

Hər bir şagirdin ümumi təhsil alması, sonra onu müxtəlif ixtisaslar üzrə ali məktəbdə davam etdirməsi, layiqli mütəxəssis kimi əmək bazarında yer tutması, rəqabət qabiliyyiyyətli olması, sağlam həyat tərzi keçirməsi, həyatda düzgün mövqe seçmək baxımından təhsilin və tərbiyənin mühüm rolu vardır. Bu sahədə müəllimlərin hər bir şagirdə, tələbəyə humanist yanaşmasının əhəmiyyəti danılmazdır. Tələbələrdə müasir dünyagörüş formalaşdırmaq, seçdikləri ixtisas üzrə sərbəst biliklər qazanmağı, həmin bilikləri analiz–sintez etmək bacarığı aşılamaq ali məktəbdə verilən təhsilin əsas vəzifələrindəndir. Bu prosesə müəllim birbaşa rəhbərlik edir və onun düzgün istiqamətləndirilməsi, düzgün formalaşdırılması müəyyən qədər müəllimdən asılıdır. Dahilərin belə bir deyimi var ki, atam mənə həyat verib, amma müəllimlərim mənə ölməzlik bəxş ediblər.

Ümummilli lider Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirərək bidirir: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq!”

Hazırda təhsilin məzmunca modernləşməsi prosesinin əsasını şəxsiyyətyönömlülük təşkil edir Müasir təhsil sisteminin əsas prinsipi olan şəxsiyyətyönamlülük öyrənmə və öyrətmə prosesində möhüm əhəmiyyət kəsb edir. Tələbələrdə elmi idrakın formalaşdırılması, tədris etdiyi fənnin imkanlarından istifadə edərək həmin fənnə marağın artırılması, təlim-tərbiyə prosesində səmərəli üsul və vasitələrdən səmərəli istifadə olunması, peşə qabiliyyətlərinin inkişafı müəllimdən, onun pedaqoji bacarığından, səriştəsindən asılıdır. Səriştəlilik isə müəllimin müvafiq pedaqoji bacarıqlara yiyələnməsidir. Pedaqoji səriştəlilik dedikdə müəllimin fəaliyyətinə şəxsi münasibəti, öz fəaliyyətini düzgün qura bilməsi və həyata keçirilməsini təmin etmək bacarığı nəzərdə tutulur.

Bu baxımdan ali məktəb müəllimlərinin də üzərinə böyük məsuliyyət düşür. Bu məsuliyyət müəllim- tələbə münaibətlərinin əsasında formalaşır və birbaşa təlim prosesinin səmərəli qurulmasına təsir edir.

Ali məktəbdə çalışan müəllimlər tədris etdiyi fənni yüksək səviyyədə mənimsətmək üçün öz ixtisaslarını mükəmməl bilməklə yanaşı, onu tələbələrin peşə qabiliyyətinə çevirməyi, peşənin incəliklərini öyrətməyi bacarmalıdırlar.

Təhsil islahatlarının tələblərinin yerinə yetirilməsində, ilk növbədə, müəllim özü dəyişməli, təlimin yeni texnologiyalarını bilməli, yeni proqram və dərsliklərdən, fənn kurikulumunun tələblərindən irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır. Yeni metodlardan istifadə zamanı müəllim şagirdlərin idraki fəallığına, müstəqil düşünmə qabiliyyətinin inkişafına nail olur. İş prosesində müəllim - şagird münasibətlərinin düzgün qurulması, şagirdlərin təhsilə marağının artmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir.

İxtisasından asılı olmayaraq hər bir müəllim məktəbdə həm təlim işi, həm geniş tərbiyə işi aparır. O, sadəcə dərs deməklə, öz fənnini tədris etməklə, tələbələrə, şagirdlərə elmlərin əsaslarını mənimsətməklə işini məhdudlaşdıra bilməz. Müəllim öz vəzifəsini yerinə yetirərkən gənc nəsli həyata və rəqabətqabiliyyətli cəmiyyətə hazırlamaq кimi, vətənini yurdunu sevən gənclər yetişdirmək kimi müqəddəs vəzifə yerinə yetirir. Bu vəzifənin ugurla həyata кeçirilməsi isə müəllimin pedaqoji ustalığından, peşə səriştəsindən və əməli fəaliyyətindən çox asılıdır. Məhz buna görə də müasir dövrdə müəllimlərin peşə bacarığı ilə yanaşı, tərbiyəvi işlərin aparılması, onun forma və metodlarına yeni yanaşma mühüm əhəmiyyət kəsb edir.

Cəmiyyətin və dövlətin prioritetlərindən biri olan yüksək mənəviyyatlı, məsuliyyətli, yaradıcı, təşəbbüskar vətəndaşın formalaşması və inkişafı üçün təhsil sosial və pedaqoji dəstəkdir. Müasir təhsilin ən mühüm məqsədi məhz budur.

Təhsil həmişə cəmiyyətin mənəvi konsolidasiyasında, xarici və daxili problemlərin həll olunmasında və sosial həmrəyliyin möhkəmlənməsində əsas rol oynamışdır.

Əsas odur ki, gələcək müəllimin öyrənmə prosesində yüksək təhsili təmin edilsin, tədris aldığı illərdə ən yaxşı insan keyfiyyətləri formalaşsın və bunun üçün həqiqətən zəruri olan bütün bilikləri əldə etmək imkanı olsun. Bu, daha vacibdir, çünki bu gün şagirdlər və ya tələbələr qətiyyətlə öyrənmə bacarığını itirirlər, özlərini inkişaf etdirməyə deyil, bal yığmaq xatirinə oxuyurlar. Bir qayda olaraq, bu da şifahi nitq bacarıqlarının itirilməsinə, intellektual qabiliyyətinin olmaması səbəbindən bir çox problemlərin həll edilməməsinə səbəb olur. Yeni yanaşma standartları müəllimin ümumi mədəni və peşəkar bacarığına, eləcə də dövlətin sosial-iqtisadi ehtiyaclarına cavab verən tələblərə

yönəlməli və bu kimi dəyərlərin formalaşmasına istiqamətlənməlidir. Bunların tətbiqi və həyata keçirilməsi tezliklə faydasını göstərməli və pedaqoji universitetlər bu prosesdə fəal iştirak etməlidir.

Göstərilən məqsədin həyata keçirilməsi bir sıra prioritetməsələlərin həllini nəzərdə tutur, yəni:

- pedaqoji təhsili alan tələbələrin biliklərinin keyfiyyətinin artırılması;
- müəllimlərin yeni peşəkar standartlarının və yeni məktəb standartlarının tətbiqinin təmin edilməsi üçün təhsil proqramlarının və təlim texnologiyalarının məzmununun dəyişdirilməsi;
- müəllim hazırlığı proqramlarını həyata keçirən mövcud pedaqoji kollec və universitetlərin səmərəliliyinin artırılması;
- müxtəlif pedaqoji təhsil alan müəllimlərin müstəqil peşəkar sertifikatlaşdırma sisteminin tətbiqi və inkişaf etdirilməsi, müəllimlərin karyerasını inkişaf etdirmək üçün belə bir sistem təmin edilməsi.

**Təsadüfü deyil ki,** bununla bağlı Əmək Məcəlləsinə yeni maddə əlavə olunub. Bu maddəyə görə Azərbaycan Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikasiyası keşiriləcəkdir. Yəni, Azərbaycanda dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin peşəkarlıq səviyyəsini və peşə yararlılığının yoxlanılması məqsədilə müəllimlər "Təhsil haqqında" qanunda nəzərdə tutulmuş qaydada sertfikasiyaya cəlb ediləcəklər.

Bu baxımdan müəllimlərin peşə fəaliyyətinə dair innovativ yanaşmaları əks etdirən yeni normativ sənədlərin hazırlanmasının vacibliyi də qeyd olunmalıdır.

Müasir pedaqoji təhsildə didaktik və texnoloji xüsusiyyətlərin formalaşması vacibdir. Bu gün cəmiyyət nəhəng bir şəbəkəyə çevrilmişdir, yeni məlumatların yaradılması texnologiyaları praktik nəticələrə nail olmaq üçün məlumatın yenidən bölüşdürülməsini və strukturlaşdırılmasını idarə edir.

Yeni təhsil paradiqması sivil mədəniyyət məkanını nəzərdə tutur. Burada vətəndaşın intellektual və mənəvi özünü inkişaf etdirmə prosesi baş verir, həqiqətin yaradıcısı və daşıyıcısı kimi bütün mənəvi azadlıqlar insana aid edilir. Cəmiyyətin mənəvi potensialının yaradıcı güclərini inkişaf etdirmək isə təhsilin vəzifəsidir. Ona görə təhsil müəssisələrinə adi məlumat ötürən işçilər deyil, peşəkarlar mütəxəssislər lazımdır. Bu həm də ali təhsilin pedaqoji problemidir və onun həlli tələb olunur.

Müəllimin peşə standartında dəyişikliklər necə təsvir olunur:

Sürətlə dəyişən dünyada, müəllimin əsas peşəkar keyfiyyəti şagirdlərinə öyrənməni öyrətmək qabiliyyəti hesab edilir. Dəyişməyə hazırlıq, mobillik, hərəkətlilik, qərar qəbuletmədə məsuliyyət və müstəqillik - müvəffəqiyyətli peşəkar fəaliyyətinin bütün bu xüsusiyyətləri müəllimə aid edilir. Bu qiymətli keyfiyyətləri tapmaq pedaqoji yaradıcılığın məkanını genişləndirmədən mümkün deyildir. Müəllimin işi ümumi nəzarətdən kənar olan kiçik tənzimləmədən azad olmalıdır. Müəllimin təşəbbüsünü məhdudlaşdıran, həddən artıq əlavə vəzifələrlə yüklənən, uşaqlarla işləməkdən çəkinən keyfiyyətlər müasir dövrün tələblərinə uyğun deyil.

Müəllimlik peşəsinin professional standartı onun fəaliyyətini tənzimləyən köhnəlmiş sənədlərdən, metod və priyomlardan imtina edilməsi onun inkişafina təkan vermək üçün nəzərdə tutulub.Dünya dəyişir, uşaqlar dəyişir, bu isə öz növbəsində müəllimlərin ixtisaslarına yeni tələblər qoyur. Nəticədə, müəllim üçün yeni bir peşə standartının tətbiqi qaçılmaz olur.

Müəllimin azadlığının sərhədlərinin genişləndirilməsi, yeni peşə standartı onun işinin nəticələri üçün məsuliyyətini artırır, ixtisasına yeni tələblər qoyur, yeni qiymətləndirmə meyarları tələb edilir. Bu gün müəllimlərin peşəkarlıq və səriştəlilik səviyyəsinin artırılması zəruriyyətdən irəli gələn bir məsələdir. Pedaqoji yenilikləri daim izləmək, onları mənimsəmək, onlardan istifadə etmək və yeniliklər yaratmaqla pedaqoji fəaliyyətin məzmununu dərinləşdirmək aktual problem olaraq müasir təhsilimizin qarşısında durur.

İstifadə edilmiş ədəbiyyat


1. .Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Bakı: 2013.
2. Əliyev H. Ə.Təhsil millətin gələcəyidir (Tərtib edənlər: M.Mərdanov, Ə.Quliyev). Bakı: Təhsil, 2002.
3. 5Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
4. . ƏlizadəƏ., Əlizadə H. Pedaqoji psixologiya. Bakı: 2010.
5. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
6. Cəbrayılova F.A. Pedaqoji təmayüllü orta ixtisas məktəblərində tələbələrin peşə səriştəliliyinin inkişafının sosioloji təhlili // Təhsilin sosioloji problemləri. Bakı: Mütərcim, 2011, s. 274.



**Açar sözlər:** təhsil, peşəkarlıq, müəllimlik fəaliyyəti, şəxsiyyətin formalaşması, peşə bacarıqları

**Ключевые слова:** образование, профессионализм, педагогическая деятельность, формирование личности, профессиональные навыки.

**Key words:** education, professionalism, teaching activity, identity formation, professional skills



**РЕЗЮМЕ**

Новый подход к подготовке педагогических кадров

Расширяя границы свободы учителя, новый профессиональный стандарт повышает ответственность за результаты его работы, устанавливает новые требования к специальности и требует новых критериев оценки. Сегодня повышение уровня профессионализма и компетентности учителей является вопросом необходимости. Углубление содержания педагогической деятельности путем постоянного мониторинга, внедрения, использования и инновации педагогических инноваций стоит перед лицом современного образования.



**SUMMARY**

New approach to the training of teachers

Expansion Slot is a professional standard, the new standard will be responsible for its responsibilities, sets new requirements for specifications, and requires newer criteria. Сегодня повышение уровня профессионализм и компетентности учителей отвляется

вопросом необходимости. Concentration of pedagogical activity on permanent monitoring, retooling, exploitation and innovation of pedagogical innovations lies in the development of modern education.

**RƏYÇİ: dos.L.Ələkbərova**